# Məcburi köçkün qadınları ilə bağlı beynəlxalq konfrans keçirilib

dınlar, Sülh və Təhlükəsizlik" qətnaməsinin 20-ci ildönümünə həsr olunduğunu bildirib.

Daha sonra çıxış edən Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycanda siyasi proseslərdə qadınların roluna böyük önəm verildiyini diqqətə çatdırıb. O bildirib ki, heç də təsadüfi deyil ki, 1918-ci ildə Xalq Cümhuriyyəti dövründə qadınlara səsvermə hüquqları verilib:

"Bu konfrans isə BMT Təhlükəsizlik Şurasının 2000-ci ildə qəbul etdiyi 1325 saylı Qadınlar, Sülh və Təhlükəsizlik qətnaməsinin 20-ci ildönümünə həsr olunub. Həmçinin beynəlxalq səviyyədə üzərimizə götürdüyümüz öhdəliklərdən çıxış edərək, xüsusilə BMT Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsinin icrası ilə bağlı 2020-2023-cü illəri əhatə edən Milli Fəaliyyət Planının layihəsi hazırlanıb. Bu xüsusda Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları, xüsusilə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rolunu qeyd etmək istərdik. Bu prosesə vətəndaş cəmiyyətinin nümayəndələri və bu sahədə aktiv olan qeyri-hökumət təşkilatları da cəlb olunmaqla Milli Fəaliyyət Planının layihəsi hazırlanıb ki, hazırda dövlət qurumlarnın işyir. Qadınların sülhün təmin edilməsində rolu təmin olunmadan məqsədlərə nail olunmayacaq. 80-ə yaxın ölkə artıq BMT-nin 1325 saylı qətnaməsi ilə bağlı özünün Milli Fəaliyyət Planını qəbul edib. Biz də Azərbaycanı BMT Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsi ilə bağlı Fəaliyyət Planını qəbul etməyə çağırırıq".



Tədbirdə, həmçinin Ombudsman Səbinə Əliyeva qeyd edib ki, Azərbaycanda həyata keçirilən kompleks tədbirlər qaçqın və məcburi köçkünlərin hüquqlarının effektiv təmin olunmasına xidmət edir: "Ombudsman İnstitutu bu əhali qrupu ilə əlaqədar innovativ təşəbbüslərlə çıxış edir. Məcburi köçkünlərin müraciətləri araşdırılaraq, ehtiyacları təmin olunur. Eyni zamanda, qanunvericilkilə bağlı aidiyyəti dövlət qurumlarıdınların ölkə həyatında aktiv iştirakına öz töhfəsini verəcək".

**Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyev bildirib ki, münaqişə tərəflərinin qadınlara qarşı zorakılığı yolverilməzdir: "Təəssüf ki, İkinci Dünya Müharibəsindən sonra da münaqişələrdə qadınların hədəf seçildiyini gördük. Ona görə də 1970-ci illərdə bu məsələyə diqqət artdı. BMT-nin 1325 saylı qətnamənin qəbulundan sonra Beynəlxalq Cinayət Məhkəməsinin yaradılmasını da qeyd etməliyik. Bu məhkəmənin də araşdırmalarında qadınların işgəncəyə məruz qalmasının şahidi olmuşuq. Dağlıq Qarabağ münaqişəsində qadınlarımız işgəncələrə məruz qalıblar. Dağlıq Qarabağın azərbaycanlı qadınlarının sülh çağırışlarının şahidiyik. Bu qadınların ləyaqətlə yaşamaq haqqı tanınmalıdır. İşğal başa çatdıqdan sonra yenidənqurma işlərində qadınlarımızın aktiv iştirak edəcəyini gözləyirik".**

**Nicat Novruzoğlu**

Ədalət.- 2020.- 25 fevral.- S.4.